 QANUN № 02 (376), 2026, s. 87-90

**Hacıyev Həbib Bəhruz oğlu,**
hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin doktorantı
E-mail: h.hajiyev@hotmail.com

**UOT 34:004.738:343.23**
**DOI: https://doi.org/10.30546/2218-9130.043.2026.546**

# AZƏRBAYCAN RESPUBLİKASINDA ELEKTRON İDARƏETMƏ: CİNAYƏT-PROSESSUAL FƏALİYYƏT KONTEKSTİNDƏ

***Açar sözlər:*** *milli təhlükəsizlik, kibertəhlükəsizlik, konsepsiya, qanun, elektron idarəetmə, cinayət-prosessual fəaliyyət.*

***Ключевые слова:*** *национальная безопасность, кибербезопасность, концепция, право, электронное управление, уголовно-процессуальная деятельность.*

***Keywords****: national security, cybersecurity, concept, law, electronic governance, criminal procedural activity.*

Sovet Sosialist Respublikaları İttifaqının dağılması, Azərbaycan xalqının milli azadlıq mübarizəsi və dünyanın demokratik qüvvələrinin dəstəyi sayəsində Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bərpa etmişdir. Müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında sosialist ictimai quruluşundan imtina edilmiş, inkişafın sosial yönlü bazar iqtisadiyyatı və demokratik vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu yolu seçilmişdir.

Son illər informasiya-kommunikasiya texnologiyaları (İKT) elə bir sürətlə inkişaf edir ki, onun sonrakı fəsadlarının əvvəlcədən dəqiq müəyyən edilməsi çox zaman mümkün olmur və sonradan yaranan neqativ vəziyyətin aradan qaldırılmasına yetərincə vəsait, zaman və bilik sərf etmək lazım gəlir. Əsasən də Internet qlobal şəbəkəsində tətbiq edilən yeni texnologiyalar, layihələr və müxtəlif proqramlar ilk baxışdan faydalı və zərərsiz görünsə də, təcrübə göstərir ki, bir çox hallarda onların yaratdığı problemlərin qarşısını tam almaq mümkün olmur [3].

Müasir dünyada informasiya-kommunikasiya texnologiyalarının, xüsusən internetin təsiri ilə qlobal rəqəmsal mühitin, virtual münasibətlərin formalaşması və sürətli inkişafı dönməz bir prosesə çevrilmişdir. Dövlət idarəçiliyi, iqtisadi fəaliyyət sahələri, elm-təhsil sistemi, informasiya-kommunikasiya mühiti, şəxsi həyat və məişət sferasını əhatə edən bütün sahələr üzrə münasibətlər ənənəvi mühitdən virtual mühitə transformasiya olunur. Bəşəriyyət analoqu olmayan yeni situasiya və münasibətlər sistemi ilə üzüzə qalmışdır. İnformasiya cəmiyyətində insanlar öz ölkələrinin vətəndaşları olmaqla, mənsub olduqları dövlətin qanunları qarşısında məsuliyyət daşımaqla yanaşı, yeni bir dünyanın – virtual məkanın virtual vətəndaşına da çevrilirlər. Bu yeni dünyada isə hələlik hamılıqla qəbul edilən hüquq sistemi formalaşmamışdır [2].

Azərbaycan Respublikasında Vahid Dövlət Elektron Xidmətləri Portalı və bu sahədə

idarəetmənin çevikliyinin təmin edilməsi məqsədi ilə dövlət xidmətlərinin elektron reyestri yaradılmışdır. Dövlət başçısının 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"ya əsasən, İKT cəmiyyətin inkişaf amili kimi müəyyən edilmiş, bu istiqamətdə görülən işlər nəticəsində ölkədə fəaliyyətin yeni formaları, o cümlədən e-hökumət, e-ticarət, distant təhsil təşəkkül tapmışdır [1].

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Cənubi Qafqaz regionunda ilk dəfə olaraq Azərbaycanda TIER III səviyyəli, ISO 20000 və ISO 27001 standartlarına uyğun Data Mərkəzi yaradılmış və fəaliyyəti təmin edilmişdir. Görülmüş işlərin davamı olaraq ölkədə "Elektron hökumət"in inkişafı, "rəqəmsal hökumət"ə keçidin təmin edilməsi, dövlət qurumlarının informasiya texnologiyalarına, elektron xidmətlərin yaradılmasına və göstərilməsinə tələb olunan dövlət xərclərinin optimallaşdırılması, informasiya sistemlərinin fəaliyyətinin daha müasir standartlar əsasında keyfiyyətli, dayanıqlı və təhlükəsiz infrastrukturda təşkilinin təmin edilməsi, vətəndaşların bu imkanlardan sərbəst istifadəsi məqsədilə "bulud" texnologiyasının tətbiqi məqsədəuyğun hesab edilmiş, 3 iyun 2019-cu il tarixində "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" 718 nömrəli Fərman imzalanmış, habelə "Hökumət buludu" (G-cloud) Konsepsiyası" təsdiq edilmişdir [4].

Beləliklə, artıq uzun müddətdir ki, ölkəmizdə müasir dünyanın trendlərindən birinə çevrilmiş informasiya texnologiyalarından fəal şəkildə istifadə olunur. Lakin etiraf edilməlidir ki, ümumən bütün dünyada olduğu kimi, Azərbaycanda da iqtisadi idarəetmə sferasının subyektləri ilə müqayisədə hüquq mühafizə və ədalət mühakiməsi orqanlarında elektron xidmətlərin tətbiqi səviyyəsi yüksək deyildir. Əlbəttə, bunun obyektiv səbəbləri vardır və daha çox həmin subyektlərin fəaliyyətinin spesifikliyi ilə bağlıdır. Lakin mövcud reallıqlar, xüsusən COVID-19 pandemiyası hüquq mühafizə və məhkəmə orqanlarının fəaliyyətinin elektronlaşdırılması mövzusunu xeyli dərəcədə aktuallaşdırmışdır.

Bununla belə, Azərbaycan Respublikasının qüvvədə olan Cinayət-Prosessual Məcəlləsində (CPM) cinayət mühakimə icraatının elektron qaydada aparılmasının ilkin hüquqi əsaslarının yaradıldığını qeyd etmək lazımdır. Belə ki, CPM-in 51-1-ci maddəsinə əsasən, məhkəmə, cinayət prosesinin iştirakçıları və cinayət prosesində iştirak edən digər şəxslər tərəfindən prosessual sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi müvafiq icra hakimiyyəti orqanının Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası Baş Prokurorluğu ilə razılaşdırmaqla müəyyən etdiyi cinayət mühakimə icraatında "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 mart tarixli 1621 nömrəli Fərmanı ilə isə "Elektron prokurorluq" informasiya sistemi haqqında Əsasnamə" təsdiq olunmuş, "Elektron prokurorluq" informasiya sisteminin formalaşdırılması, aparılması, digər qurumların informasiya sistemləri və ehtiyatları ilə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə inteqrasiyasının hüquqi, təşkilati və texnoloji əsasları müəyyən edilmişdir. "Elektron imza və elektron sənəd haqqında" Qanunda elektron sənəd formasında tərtib edilmiş prosessual sənədlər kağız daşıyıcıda olan sənədlərə bərabər tutulur.

CPM-in 51-2.1-ci maddəsində cinayət mühakimə icraatında prosessual hərəkətlərin vide-

okonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi imkanı nəzərdə tutulmuşdur. 22 dekabr 2023-cü il tarixli 1061-VIQD nömrəli Qanunla CPM-ə prosessual sənədlərin elektron qaydada verilməsi ilə bağlı yeni məzmunda IV-I fəsil, 54-1-ci maddə əlavə edilmişdir. Qeyd edilənlər "elektron məhkəmə" və "elektron prokurorluq" ilə paralel olaraq "elektron cinayət təqibi" mövzusunu aktuallaşdırır. Azərbaycan Respublikasının cinayət təqibi orqanları, o cümlədən ölkədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorluq orqanları tərəfindən bu sahənin inkişafı məqsədilə müvafiq işlər görülür.

Elektron cinayət təqibi üzrə icraat problemi aşağıdakı məsələləri əhatə edir:

1) prosessual qərar, sorğu və vəsatətlərin nümunəvi elektron formalarının hazırlanması, təsdiqi, prosessual münasibətlərin iştirakçılarının ixtiyarına verilməsi;

2) prosessual hərəkətlərin (baxış, müayinə, axtarış və s.) aparılmasının elektronlaşdırılması;

3) ibtidai araşdırmaya prosessual rəhbərliyi və nəzarəti həyata keçirən subyektin bu sahədə müvafiq fəaliyyətinin elektronlaşdırılması;

4) "Elektron cinayət təqibi", "Elektron prokurorluq" və "Elektron məhkəmə" informasiya sistemləri ilə prosessual münasibətlərin iştirakçıları arasında əlaqənin elektronlaşmasına imkan verən texniki sistemin yaradılması.

Məsələlərin kompleks həlli üçün bu sahədə müvafiq Yol Xəritəsinin hazırlanmasını və bu məqsədlə ölkədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Azərbaycan Respublikasının Baş Prokurorluğunda müvafiq sahələr (hüquq, informasiya texnologiyaları və s.) üzrə yüksək elmi-nəzəri, təcrübi bilik və bacarığı olan mütəxəssislərdən ibarət İşçi Qrupunun yaradılmasını təklif edirik.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya / Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://https://e-qanun.az/framework/27456

2. Əliquliyev R.M., İmamverdiyev Y.N., Mahmudov R.Ş. İnformasiya təhlükəsizliyinin multidissiplinar elmi-nəzəri problemləri. / – Bakı: İnformasiya cəmiyyəti problemləri, – 2017. №2, – s. 32-43.

3. Əlizadə C.Ş., Əliyev B.Ə. Kibertəhlükəsizlik dövlət təhlükəsizliyinin tərkib hissəsi kimi / ЮРИДИЧЕСКИЕ НАУКИ И ОБРАЗОВАНИЕ. – 2018. № 55, – s. 21-29.

4. Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında 3 iyun 2019-cu il tarixli 718 nömrəli Fərman. [Elektron resurs]/URL: http://www.e-qanun.az/framework/42560

**Гаджиев Хабиб Бахруз оглу,**
доктор философии по праву, докторант
Бакинского государственного университета

## ЭЛЕКТРОННОЕ УПРАВЛЕНИЕ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ: В КОНТЕКСТЕ УГОЛОВНО-ПРОЦЕССУАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

### РЕЗЮМЕ

Во всех сферах деятельности Азербайджанской Республики, ставшей неотъемлемой частью глобального мира, осуществляется работа в соответствии с современными тенденциями позитивного развития. В стране последовательно внедряются процессы цифровизации, применения искусственного интеллекта, электронного управления, а также обеспечивается кибербезопасность. В статье кратко анализируется внедрение механизмов электронного управления в сферу уголовно-процессуальной деятельности с учётом современных глобальных вызовов.

**Hajiyev Habib Bahruz,**
PhD in Law, Doctoral Student,
Baku State University

**ELECTRONIC GOVERNANCE IN THE REPUBLIC OF AZERBAIJAN: IN THE CONTEXT OF CRIMINAL PROCEDURAL ACTIVITY**

**SUMMARY**

In all spheres of activity in the Republic of Azerbaijan, which has become an integral part of the global community, work is carried out in accordance with contemporary trends of positive development. The country is steadily implementing processes of digitalization, the application of artificial intelligence, electronic governance, and, at the same time, ensuring cybersecurity. This article briefly analyzes the implementation of electronic governance mechanisms in the field of criminal procedural activity, taking into account current global challenges.

**Redaksiyaya daxilolma tarixi: 30.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 23.02.2026**
**Çapa qəbul olunma tarixi: 25.02.2026**